

# 5 YAŞDAN başlayaqmı?

Təhsil nazirinin məktəbdə təhsilə 5 yaşından başlamaqla bağlı təklifi cəmiyyətdə birmənalı qarşılanmır. Bu ideyanı dəstəkləyənlər də var, qəti əleyhinə olanlar da.



TƏRANƏ MƏHƏRRƏMOVA
terenameherremova@kaspi.az

5 yaşından etibarən məktəbdə təhsilə başlamaq ehtimalının təhsil naziri tərəfindən səsləndirilməsi cəmiyyət tərəfindən birmənalı qarşılanmadı. Erkən uşaq inkişafı və məktəbə tez başlamanın vacib məsələ olduğunu qeyd edən nazirin “Zənnimcə, 6 yaş gecdir. Sosial-iqtisadi və yaxud məkan baxımından olan məqamları kənara qoyaraq məktəb yaşının 5-ə qədər azaldılmasına çalışmalıyıq” fikirləri xüsusən məktəbəqədər hazırlıqda oxuyan şagirdlərin valideynlərinin narazılığına səbəb oldu. Onların sosial şəbəkələrdə “Uşaqlar bu yaşda təhsilə hazır deyillər” kimi səslənən fikirləri bir-birinə qarışdı, “lehinə” və “əleyhinə” arqumentləri diqqət çəkdi.

Ölkəmizdə uşaqların 1-ci sinfə, əsasən, 6 yaşında, lazım gələrsə, 7 yaşında getdiyini əsas gətirərək psixofiziki hazırlığın vacib faktor olduğu ayrıca vurğulandı: “Ümid edirik ki, nazirlik belə bir qərar verməyə tələsməyəcək, çünki onu dəstəkləyən arqumentlər hələ də azdır”.

Amma nazirin fikirlərindən məmnun qalanlar da az olmadı.

### BİR AVROPA TƏCRÜBƏSİ

Qeyd edək ki, Avropa ölkələrinin əksəriyyətində uşaqlar 6-7 yaşlarında məktəbə gedirlər. Məsələn, Avstriya, Belçika, İspaniya, Fransada - 6 yaşından 18 yaşa qədər təhsil alırlar. Danimarka ilə İtaliyada – 19 yaşa qədər, Polşa, Litva, Latviya, Finlandiya və İsveçdə dərslər 7 yaşından başlayaraq 19 yaşa qədər davam edir.

İngiltərədə təhsil 5 yaşından başlasa da, bu dövr məktəbəqədər sayılır.

### DÜŞÜNMƏK ÜÇÜN MESAJ

Təhsil Nazirliyi yanında İctimai Şuranın sədr müavini Nadir İsrafilov müzakirələrə münasibət bildirərək deyir ki, nazirin açıqlaması heç də sabah və ya birisi gündən bu ideyanın reallaşacağı anlamına gəlmir: “Düşünürəm ki, qarşımızda duran çağırışlardan biri uşaqların məktəbə başlama yaşıdır” ifadəsi isə geniş ictimaiyyətə bu barədə düşünmək üçün bir mesajdır. Heç şübhəsiz ki, nazir bu məsələyə diqqəti yönəldərkən müəyyən araşdırmalara, təhlillərə istinad edib, dünya təcrübəsi baxımından yanaşma sərgiləyib. Bu mənada, ideya birmənalı qarşılanmayacağı halda belə, bu ətrafda alternativ fikirlər irəli sürmək, ictimai müzakirələr keçirmək, təhsil mütəxəssislərinin, psixoloqların, ən başlıcası isə valideynlərin mövqelərini öyrənmək zərurəti yaranacaqdır. Hər şeydən əvvəl ona görə ki, məktəbin vəzifəsi təkcə öz yetirmələrinə bilik vermək, müəyyən bacarıq və vərdişlər formalaşdırmaq deyil, həm də cəmiyyət üçün mənəvi və fiziki cəhətdən sağlam nəsil yetişdirməkdir”.



### ƏN BÖYÜK HAKİM – ZAMAN

N.İsrafilovun fikrincə, yalnız ümumi ictimai rəy öyrənildikdən sonra pilot şəklində bir neçə məktəbdə bunu sınaqdan keçirmək və daha sonra isə kütləviləşdirmək olar: “Düzdür, artıq 5 yaşlılarla bağlı ölkəmizdə kifayət qədər təcrübə var. 2016-cı ildən bəri 3 minə qədər məktəbdə yaradılan hazırlıq qruplarına cəlb olunan şagirdlərin sayı az qala 100 minə çatır. Lakin onu da nəzərə alaq ki, 5 yaşdan I sinfə başlamaq, məktəbəhazırlıq qruplarına 4 yaşdan başlamaq demək olacaq. Bu, uşaqları öz qayğısız uşaqlıq illərini istədikləri kimi yaşamaq imkanından məhrum edəcək. Təhsil bizim üçün nə qədər önəmli olsa da, zənn etmirəm ki, hansısa bir valideyn uşağının təhsilini onun sağlamlığından üstün tutsun. Biz hələ təhsilin inkişafına dair qəbul etdiyimiz Dövlət Strategiyamızda hədəflənən 2020-ci ilə qədər 12 illik təhsilə keçib-keçməyəcəyimizə tam aydınlıq gətirməmişik. Təhsilimizlə bağlı həllini gözləyən xeyli problemlər var”. N.İsrafilov hesab edir ki, nazirin açıqlaması gələcək perspektivə hesablanan bir çağırış və hər kəsə düşünmək üçün verilən bir şansdır: “İstənilən halda, belə bir keçid mexaniki şəkildə baş verməyəcək. Təhsilin strukturunda, ümumi pillələrində formaca, tədris planları, proqramları və dərsliklərdə isə məzmunca dəyişikliklər aparılması zərurəti yaranacaq. Bir sözlə, hər şey zamana bağlıdır. Ən böyük hakim zamandır”.

## 1-ci pillə kimi

Azərbaycan Dövlət Pedaqoji Universitetinin təhsilin pedaqogikası kafedrasının baş müəllimi Xalidə Həmidovanın fikrincə, məktəbəhazırlıq qruplarının proqramı üzərindən 12 illik təhsil sisteminə keçib bu addımı atmaq olar: “Amma 1-ci sinfin proqramını 5 yaşlılara keçirmək düzgün deyil. Bir neçə il əvvəl bağçaların məktəbəhazırlıq qruplarında 1-ci sinif proqramı tərtib olunmuşdu. 5 yaşlı uşaqlar 1-ci sinif proqramını qavraya bilmədilər. Bu eksperimentin mənfi nəticəsi oldu və saxlanıldı”. X.Həmidova hesab edir ki, indiki məktəbəhazırlıq qrupları 1-ci pillə hesab olunaraq təhsilə başlaya və proqram dəyişmədən məktəbin 1-ci pilləsi hesab oluna bilər: “Digər tərəfdən, razıyam. Onsuz da uşaq bağçalarında yer yoxdur. Bağçalarımız uşaqlarımızla bağlı fəaliyyəti tam əhatə edə bilmir. Bu baxımdan, məktəbəhazırlıq qruplarından başlaya bilərik. Amma bir şərtlə ki, təhsil məktəbəhazırlıq proqramının əsasında olsun. Yəni o proqramda yazı yoxdur, uşağın inkişafına yönəli tapşırıqlar var. Tədris uşaqların fiziki, idraki, psixoloji, sosial cəhətdən formalaşmasına xidmət edən proqram üzərindən başlayır. Belə olsa, mümkündür. Yox, əgər 1-ci sinfi 5 yaşa keçiririk və o proqramla da davam edirik, bu, absurd olar. Bir pedaqoq kimi düşünürəm ki, bununla uşaqlarımızı məhv etmiş olarıq”. X.Həmidova hesab edir ki, bu məsələyə münasibət üçün təhsil sahəsində böyük təcrübəsi olan alimlər, təcrübəçi metodistlər, praktik pedaqoqlar, psixoloqlar və sosioloqlardan ibarət qrup toplanmalı və hərtərəfli müzakirə olunmalıdır.

## İctimai sifariş

Təhsil eksperti Qoşqar Məhərrəmov təhsilin 5 yaşında başlaması təklifini sürpriz hesab eləmir. Belə ki, artıq neçə ildir ümumtəhsil müəssisələrində məktəbəqədər qrupları açılır və əhalinin çox hissəsi böyük şövqlə övladlarını bu qruplara icbari olmasa belə, yazdırır: “Deməli, artıq bu, bir ictimai sifarişdir. Təhsilə 5 yaşında başlamaq inkişaf etmiş ölkələrin təcrübəsinə uyğundur və yaxın gələcəkdə belə bir qərar bizdə də olsa, təəccüb doğurmayacaq”. Psixoloqlar da hesab edirlər ki, təhsilin başlanmasının mümkün yaşı, uşağın öyrənməyə psixofizioloji hazırlığından çox asılıdır.

